# "TEKNOFEST-2022 Qara Dəniz" ümumilikdə 1 milyon 250 min nəfərə evsahibliyi edib

**Türkiyə Respublikasının Samsun şəhərində keçirilən Aerokosmik və Texnologiya Festivalı (TEKNOFEST) uğurla başa çatıb. Festival çərçivəsində təşkil olunan yarışlarda 107 ölkədən 150 min komanda iştirak edib.**



AZƏRTAC xəbər verir ki, avqustun 30-da start götürüb altı gün davam edən festivalda Azərbaycan geniş tərkibdə və fəal iştirak edib. Ölkəmizi təmsil edən komandaların fəallığı, təqdim olunan nadir layihələr, o cümlədən Azərbaycan bölmələri böyük maraqla qarşılanıb. TEKNOFEST estafetinin Azərbaycandan yenidən Türkiyəyə keçməsi ilk növbədə iki qardaş ölkənin texnologiya elmləri sahəsindəki qüdrətini nümayiş etdirib. "TEKNOFEST-2022 Qara Dəniz"in final mərhələsinin açılış mərasimində çıxış edən "Baykar Makine" şirkətinin texniki direktoru Selçuk Bayraktarın söylədiyi "Qardaş Azərbaycandan, işğaldan azad edilən azad Şuşadan salam gətirmişəm!" ifadəsi festivalda əks-səda verib.

Rəsmi məlumata görə, "TEKNOFEST-2022 Qara Dəniz" ümumilikdə 1 milyon 250 min insana evsahibliyi edib ki, onların da təxminən 900 mini ziyarətçi olub. Xatırladaq ki, 2018-ci ildən başlayaraq hər il keçirilən festival bu il ilk dəfə Türkiyə hüdudlarından kənarda, Azərbaycanda baş tutub. Növbəti TEKNOFEST-ə Pakistan və ya İndoneziyanın evsahibliyi edəcəyi gözlənilir.

Azərbaycan.- 2022.- 6 sentyabr.- S.2.